UOT: 159.953:159.922.7
https://doi.org/10.30546/670832.2025.01.1235

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.146-148
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.146-148
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.146-148

# Əqli keyfiyyətlərin mahiyyəti, strukturu və əsas xüsusiyyətlərinə dair

**Müəllif(lər):**

**Bahar Rzayeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** baharrza20@gmail.com

**Açar sözlər:** idrak fəaliyyətləri, koqnitiv bacarıqlar, multidisipliner yanaşma, kritik düşünmə, emosional intellekt, kreativ düşüncə, məntiqi təfəkkür, koperasiya bacarıqları (ünsiyyət bacarıqları)

**Annotasiya.** Əqli keyfiyyətlərin öyrənilməsi yalnız təhsil və psixologiya sahələrində deyil, həmçinin əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanmasında idarəetmə strategiyalarının qurulmasında mühüm əhəmiyyətə malikdir. Cəmiyyətin inkişafı və fərdi potensialın tam şəkildə ortaya çıxarılması, şəxsiyyətin intellektual qabiliyyətinin öyrənilməsini və bu sahədə yeni yanaşmaların tətbiqini zəruri edən amillərdəndir. Tədqiqatın əsas məqsədi əqli keyfiyyətlərin mahiyyətini açıqlamaqla birgə onların struktur və funksiyalarını müəyyənləşdirməkdir. Əqli keyfiyyətlərə diqqət yönəltmə, məntiqi təfəkkür analitik yanaşma, sürətli düşünmə yaradıcılıq kimi keyfiyyətlər aid edilə bilər.

Məqalədə elmi mənbələrə və müşahidə nəticələrinə əsaslanmış, əqli keyfiyyətlərin formalaşmasına və inkişafına təsir edən faktorlar təhlil olunmuşdur. Əqli fəaliyyətin tərkib hissəsi olan bu keyfiyyətlərin inkişafı üçün təlimin məzmunu, tədris metodları və mühitin rolu xüsusi ilə vurğulanmışdır.

Nəticələr göstərir ki, əqli keyfiyyətlərin məqsədyönlü inkişafı fərdin idrak potensialının formalaşmasında kritik düşünmə, məntiqi təfəkkür bu və ya digər idrak bacarıqları müstəsna rol oynayır.

## The essence, structure and main properties of mental qualities

**Author(s):**

**Bahar Rzayeva**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** baharrza20@gmail.com

**Key words:** cognitive activities, cognitive skills, multidisciplinary approach, critical thinking, emotional intelligence, creative thinking, logical thinking, cooperation skills (communication skills)

**Abstract.** The study of mental qualities is of great importance not only in the fields of education and psychology, but also in the establishment of management strategies for the preparation of qualified personnel in accordance with the requirements of the labor market. The development of society and the full disclosure of individual potential are factors that make the study of the intellectual abilities of a person and the application of new approaches necessary in this field. The main goal of the study is to reveal the essence of mental qualities, as well as to determine their structure and functions. Mental qualities include qualities such as attention, logical thinking, analytical approach, quick thinking, creativity.

The article analyzes the factors affecting the formation and development of mental qualities, based on scientific sources and observation results. The role of the content of training, teaching methods and the environment for the development of these qualities, which are an integral part of mental activity were specially emphasized.333

The results show that, the purposeful development of mental qualities, critical thinking, logical thinking, several cognitive skills plays an exceptional role in the formation of the cognitive potential of a person.

## К вопросам о сущности, структуре и основных свойствах умственных качеств

**Автор(ы):**

**Бахар Рзаева**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** baharrza20@gmail.com

**Ключевые слова:** когнитивная деятельность, когнитивные навыки, междисциплинарный подход, критическое мышление, эмоциональный интеллект, творческое мышление, логическое мышление

**Аннотация.** Изучение умственных качеств имеет важное значение не только в области образования и психологии, но и в построении управленческих стратегий подготовки квалифицированных кадров в соответствии с требованиями рынка труда. Развитие общества и полное раскрытие индивидуального потенциала являются одними из факторов, которые делают необходимым изучение интеллектуальных способностей личности и применение новых подходов в этой области. Основной целью исследования является выявление сущности умственных качеств и совместно с ней определение их структуры и функций. К умственным можно отнести такие качества, как целенаправленность, аналитический подход к логическому мышлению, сообразительность, креативность.

В статье, основанной на научных источниках и результатах наблюдений, анализируются факторы, влияющие на формирование и развитие умственных качеств. Специально выделены содержание обучения, методы обучения и роль среды для развития этих качеств, составляющих психическую деятельность.

Результаты показывают, что целенаправленное развитие умственных качеств критического мышления, логического мышления, тех или иных познавательных навыков играет исключительную роль в формировании познавательного потенциала личности.

**Giriş.** Əqli keyfiyyətlərin mahiyyətini və strukturunu öyrənmək müasir dövrdə elmi və praktik əhəmiyyət kəsb edən əsas mövzulardan biridir. İnsanların analitik və yaradıcı düşüncə qabiliyyətləri cəmiyyətin inkişafında həlledici rol oynayır. Hazırkı dövrün rəqabətli və dinamik mühiti, idrak proseslərinin daha dərindən araşdırılmasını zəruri edir. Əqli keyfiyyətlər fərdin şəxsi və peşəkar həyatında uğur qazanması üçün mühüm amillərdən biridir. Təhsil sistemində tələbələrin əqli bacarıqlarını inkişaf etdirmək üçün yeni yanaşmalara ehtiyac duyulur. Əqli keyfiyyətlərin tədqiqi, onların inkişafına yönəlmiş daha səmərəli tədris və təlim proqramlarının yaradılmasını təmin edir. Bu mövzu sosial problemlərin həlli və daha dayanıqlı cəmiyyətin formalaşması baxımından da böyük əhəmiyyət kəsb edir. İnsanların düzgün qərarlar qəbul etməsi, mürəkkəb problemləri analiz etməsi və kreativ həllər tapması üçün əqli keyfiyyətlərin inkişafı vacibdir. İnnovativ texnologiyaların tətbiqi ilə idrak proseslərinin daha dəqiq öyrənilməsi mümkün olur. Süni intellekt və kognitiv elmlərin sürətli inkişafı, əqli keyfiyyətlərin araşdırılmasını daha da aktual edir. Beyin fəaliyyətinin analizi və onun idrak proseslərinə təsirinin tədqiqi müasir elmi axtarışların prioritetlərindən biridir. Multidissiplinar yanaşmalar əqli keyfiyyətlərin öyrənilməsində daha əhatəli nəticələr əldə etməyə imkan verir. Əqli keyfiyyətlərin strukturu haqqında məlumatlar fərdi təlim metodlarının inkişafına töhfə verə bilər. Müxtəlif ölkələrin təcrübələrinin müqayisəsi universal əqli inkişaf metodlarının formalaşdırılmasına səbəb ola bilər. Bu mövzu insanların yalnız intellektual inkişafı üçün deyil, həm də emosional və sosial bacarıqlarının inkişafı üçün əhəmiyyətlidir. Əqli keyfiyyətlərin öyrənilməsi, liderlik və qərar qəbuletmə bacarıqlarının artırılması üçün də vacibdir. Cəmiyyətin rifahı, insanların düşüncə səviyyəsinin inkişafı ilə birbaşa əlaqəlidir. Əqli keyfiyyətlərin inkişafı, müasir peşə bazarında rəqabət üstünlüyü qazandırır. Bu sahədə aparılan tədqiqatlar gələcəkdə daha innovativ texnologiyaların və metodların yaradılmasına səbəb olacaq. Beləliklə, əqli keyfiyyətlərin mahiyyəti və xüsusiyyətlərinin öyrənilməsi həm fərdi, həm də cəmiyyətin ümumi inkişafı üçün böyük əhəmiyyətə malikdir.

**Material və metodlar.** Bu tədqiqatda əqli keyfiyyətlərin öyrənilməsi mövzusunun hərtərəfli tədqiqi üçün sadə və effektiv elmi metodlardan istifadə edilmişdir. Metodlar mövzunun xüsusiyyətlərinə uyğun seçilmiş və onun əsas aspektlərini əhatə etməyə imkan yaratmışdır. Əqli keyfiyyətlərin tarixi inkişafını və bu sahədə tətbiq edilmiş müxtəlif metodları araşdırmaq üçün analitik metoddan istifadə edilmişdir. Bu yanaşma vasitəsilə mövcud ədəbiyyat, elmi məqalələr və əqli qabiliyyətlərin öyrənilməsinə dair əvvəlki araşdırmalar təhlil edilmişdir. Fərdlərin əqli fəaliyyətlərini müşahidə etməklə onların qabiliyyətlərinin təzahürü və inkişafı ilə bağlı məlumatlar toplanmışdır. Bu metod real vəziyyətlərdə əqli keyfiyyətlərin necə işlədiyini anlamağa imkan vermişdir. Əqli keyfiyyətlərin öyrənilməsində istifadə olunan metodlarla bağlı müəllimlər, tələbələr və psixoloqlarla sorğular aparılmışdır. Bu yanaşma mövzu ilə bağlı praktik təcrübələri öyrənməyə imkan yaratmışdır. Tədqiqatın müəyyən mərhələsində əqli keyfiyyətlərin inkişaf etdirilməsi ilə bağlı sadə təcrübələr aparılmışdır. Bu eksperimentlər vasitəsilə müxtəlif metodların effektivliyi yoxlanılmış və onların nəticələri müqayisə edilmişdir. Əqli keyfiyyətlərin öyrənilməsi sahəsində müxtəlif dövrlərdə və ölkələrdə tətbiq olunan metodlar arasında müqayisələr aparılmışdır. Bu yanaşma, fərqli yanaşmaların üstün və zəif cəhətlərini müəyyən etməyə imkan vermişdir. Əqli keyfiyyətlərin öyrənilməsinə dair toplanmış məlumatlar statistik olaraq təhlil edilmişdir. Bu metod vasitəsilə metodların effektivliyi, nəticələrin ümumiləşdirilməsi və müəyyən trendlərin aşkarlanması təmin edilmişdir. Bu metodlar mövzunun hərtərəfli öyrənilməsini təmin etmiş və əqli keyfiyyətlərin öyrənilməsi sahəsində praktiki və nəzəri nəticələr əldə etməyə imkan yaratmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, ilk növbədə əqli keyfiyyətlərin öyrənilməsi və inkişaf etdirilməsi sahəsində əldə edilən nəticələrin geniş tətbiq imkanları ilə bağlıdır. Tədqiqatın nəticələri təhsil, psixologiya və insan resurslarının idarə edilməsi sahələrində real fayda vermişdir və gələcəkdə də tətbiq ediləcəkdir. Əvvəla, tədqiqatın təqdim etdiyi metodlar təhsil müəssisələrində şagirdlərin və tələbələrin intelektual qabiliyyətlərinin artırılması üçün uğurla istifadə edilmişdir. Bu yanaşmalar tədris proqramlarının

tərtibatında, fərdi təhsil strategiyalarının hazırlanmasında, həmçinin tədris prosesində müəllimlər və digər təhsil işçiləri üçün effektiv vasitə olmuşdur və bu istiqamətdə istifadəsi davam etdiriləcəkdir. Tədqiqatın nəticələri psixologiya sahəsində də böyük praktiki əhəmiyyət kəsb edir. Əqli keyfiyyətlərin inkişafı ilə bağlı təqdim edilən yanaşmalar fərdi və qrup psixoterapiyası proqramlarının hazırlanmasında tətbiq olunmuşdur. Psixoloqlar və psixoterapevtlər bu nəticələrdən istifadə edərək daha effektiv qiymətləndirmə və inkişaf metodları tətbiq etmişlər.

**Nəticə və müzakirələr.** Əqli keyfiyyətlər fərdin intellektual bacarıqlarını, perspektivə yiyələnmə potensialını özündə ehtiva edən psixi xüsusiyyətlərdəndir. Əqli keyfiyyətlər, insanın zəka səviyyəsini və idrak qabiliyyətlərinin inkişafını təyin edir. Yüksək əqli bacarıqlar fərdin problemləri həlletmə qabiliyyətlərini, analitik düşünmə bacarığını və yaradıcı təfəkkür gücünü artırır. Bu şəxsiyyətin çevik və adaptiv düşünmə potensialını inkişaf etdirir və ona qarşılaşdığı problemlərin effektiv həlletmə imkanları verir.

İdrak qabiliyyətinin məqsədyönlü inkişafı fərdi motivasiyasını artırmaqla yanaşı, onun hərtərəfli, dünyagörüşlü, milli və ümumbəşəri dəyərlərə malik şəxsiyyətə çevrilməsində istisna rol oynayır. Bu da fərdin emosional intellektini idarə etmə, empatiya hissəsinin yüksək səviyyədə formalaşdırmasına gətirip çıxarır. Tədqiqatlar göstərir ki, əqli qabiliyyətlərin inkişafı, fərdin insanlararası münasibətlərində bacarıqlarının qurulmasında mühüm rol oynayır.

Problem situasiyadan çıxış yollarını tapmaq, çevik və sürətli düşünmək, kollektivlə iş, liderlik, təşəbbüskarlıq, produktivlik, kreativ və kritik düşünmə, kommunikasiya bacrıqlarının formalaşması əqli keyfiyyətlərin inkişaf dərəcəsindən asılıdır. Bununla yanaşı, XXI əsrin cəmiyyətin üzvlərinin qarşısında qoyduğu əsaslı tələblər onlardan idrak bacarıqlarını inkişaf etdirmələrini zəruri edir. Müasir dövrün dəyişən tələbləri ilə ayaqlaşmaq üçün daim yenilənən biliklərin əldə olunması, həmin biliklərin düzgün analiz edilib, etibarlığının yoxlanılması və praktikada tətbiqi əqli keyfiyyətlərin inkişafından xəbər verir. Bu keyfiyyətlərə yiyələnmiş hər kəs innovativ düşünmə, məhsuldar fəaliyyətlə məşğul olma, stressi idarə etmə daxili balansı qoruma kimi xüsusiyyətlərə malik olur. Psixoloji sağlamlığın əsas göstəricilərindən ən vacibi əqli keyfiyyətlərin yüksək səviyyədə inkişafıdır. Fərdin intellekti, əslində məlumatın təhlili, onun mənimsənilməsi və müvafiq vəziyyətlərdə tətbiq olunmasında əsas rol oyanyır.

**Yekun nəticə.** Cəmiyyətə təsiri baxımından, əqli keyfiyyətlərin inkişafı insanların daha məhsuldar və daha düşüncəli vətəndaşlar olmalarını təmin edir. Sosial dəyişikliklərin və yeniliklərin həyata keçirilməsi üçün təhsil sistemi vasitəsilə əqli keyfiyyətlərin inkişaf etdirilməsi cəmiyyətin ümumi inkişafına təsir edir. Beləliklə, təhsil yalnız bilik və bacarıqları artırmır, eyni zamanda cəmiyyətin daha ağıllı və effektiv fəaliyyət göstərməsini təmin edir. İnsanlar daha yaxşı idarəetmə bacarıqları, daha dərin düşüncə qabiliyyətləri və müsbət sosial təsirlər göstərən fəaliyyətlərdə iştirak edirlər.

Nəticə olaraq, əqli keyfiyyətlərin öyrənilməsi, təhsilin məqsədinə çatmaq üçün yalnız biliklərin artırılması deyil, həm də sosial inkişafın, əməkdaşlığın və insanlıq keyfiyyətlərinin inkişafı ilə əlaqəlidir. Bu, cəmiyyətin sağlam və sabit inkişafını təmin etmək üçün zəruri olan bir amildir.

**Ədəbiyyat**

1. Əhmədov, A. Əqli inkişafın əsas prinsipləri / A.Əhmədov. − Bakı: Elm və təhsil, − 2020.
2. Əliyev, R. Psixoloji yanaşmalar və əqli bacarıqlar / R.Əliyev. − Bakı: Təhsil, − 2021.
3. Hüseynov, T. Yaddaş və düşünmə prosesləri / T.Hüseynov. − Bakı: Azərnəşr, − 2019.
4. Məmmədov, S. Əqli keyfiyyətlər və onların inkişafı / S.Məmmədov. − Bakı: Elm və təhsil, − 2020.
5. Abbasov, M. İnsan psixologiyasının nəzəriyyələri / M.Abbasov. − Bakı: Bakı Universiteti, − 2018.
6. Quliyev, T. Əqli inkişafın psixoloji aspektləri / T.Quliyev. − Bakı: Nurlar, − 2021.

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru, professor Gültac Əliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 09.01.2025, son daxilolma – 17.02.2025, qəbulolunma – 13.03.2025